**UNEC "Cross-Cultural Club"ın ("Beynəlxalq mədəniyyət klubu") Əsasnaməsi**

## 1. Ümumi müddəalar

1.1. UNEC "Cross-Cultural Club" ("Beynəlxalq mədəniyyət klubu") UNEC-in sosial-mədəni və iqtisadi işlərində fəal iştirak edən ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil alan yerli və əcnəbi təhsilalanların könüllü ictimai təşkilatıdır.

1.2. Təşkilat UNEC-in Beynəlxalq Əməkdaşlıq Departamentinin nəznindədir və UNEC-in rəhbərliyinə tabedir.

## 2. UNEC "Cross-Cultural Club"-ın əsas məqsəd və vəzifələri

2.1. UNEC "Cross-Cultural Club"-ın əsas məqsədi təhsilalanlar arasında multikulturalizm mühiti yaratmaq və inkişaf etdirmək, müxtəlif mədəniyyətlərin xüsusiyyətlərini anlatmaq, ümümdünya təfəkkürünü inkişaf etdirmək, dünya xalqları dillərinin öyrənilməsi, təhsilalanların qlobal dünyaya açılması;

2.2. Dünya xalqlarının adət-ənənələrinin və əsas anlayışların öyrənilməsi;

UNEC "Cross-Cultural Club"-ın vəzifələri aşağıdakılardır:

- Əcnəbi və yerli təhsilalanlar arasında dostluq və həmrəylik ruhunun artırılması;
- Əcnəbi təhsilalanlara, Azərbaycanın sosial-mədəni dəyərlərinin mənimsənilməsində köməklik göstərilməsi;
- Müxtəlif səviyyəli tədbirlərin – seminar, dəyirmi masalar və konfransların, müsabiqələrin, müxtəlif sahələr üzrə olimpiadaların, diskussiya klublarının və s. tədbirlərin təşkili və keçirilməsində təhsilalanların iştirakının təmin edilməsi.

## 3. UNEC "Cross-Cultural Club"-ın strukturu

- UNEC-də təhsil alan bütün tələbələr UNEC "Cross-Cultural Club"-ın üzvü ola bilərlər;
- UNEC "Cross-Cultural Club"-ın strukturuna aşağıdakılar daxildir:

- UNEC "Cross-Cultural Club"-ın nəzdində 8 nəfərdən ibarət daimi heyət fəaliyyət göstərəcək;
- UNEC "Cross-Cultural Club"-ın heyəti bütün fakültə və bölmələr üzrə fəal tələbələrdən seçilir;
- UNEC "Cross-Cultural Club"-ın sədri UNEC-in fəal və təşəbbüskar təhsilalanları arasından Beynəılxalq Əməkdaşlıq Departamentinin rəhbərliyi tərəfindən seçilir;

## 4. UNEC "Cross-Cultural Club"-ın işinin təşkili

- Hər tədris ilinin əvvəlində UNEC "Cross-Cultural Club"-ın üzvləri ilin ilk iclasına toplanırlar. İclasda UNEC "Cross-Cultural Club"-ın tədris ili üzrə Tədbirlər planı hazırlanır. Tədbirlər Planı heyətin sadə səs çoxluğu ilə gəbul olunur;
- Qəbul olunmuş Planda nəzərdə tutulmuş tədbirlər il əzrində həyata keçirilir;

4.3. UNEC "Cross-Cultural Club"-ın sədri qərarların yerinə yetirilməsini təşkil edir və onlara nəzarəti həyata keçirir, eləcə də Beynəlxalq Əməkdaşlıq Departamenti qarşısında fəaliyyəti haqqında hesabat verir.

## 5. UNEC "Cross-Cultural Club"-ın üzv olma qaydaları, üzvlərin hüquq və vəzifələri

- UNEC "Cross-Cultural Club"-ın üzvlərindən heç bir ödəniş tələb olunmur.
- UNEC "Cross-Cultural Club"-ın üzvü olmaq üçün xüsusi tələb qoyulmur;
- UNEC "Cross-Cultural Club"-ın üzvlüyünün say məhdudiyyəti yoxdur.
- UNEC "Cross-Cultural Club" üzvlərinin hüquqları aşağıdakılardır:
- UNEC "Cross-Cultural Club"-ın fəaliyyətinə dair informasiya əldə etmək;
- UNEC "Cross-Cultural Club"-ın İdarə Heyətini seçmək və seçilmək;
- UNEC "Cross-Cultural Club"-da üzvlüyünü öz xahişi ilə dayandırmaq.
- Müxtəlif layihə və proqramlarla çıxış etmək;
- Öz mənafeyinin müdafiəsi üçün təşkilata müraciət etmək.

UNEC "Cross-Cultural Club"-ın üzvlərinin vəzifələri aşağıdakılardır:

- UNEC "Cross-Cultural Club"-ın əsas fəaliyyət prinsiplərinə riayət etmək;
- UNEC "Cross-Cultural Club"-ın işində fəallıq göstərmək;
- UNEC "Cross-Cultural Club" tərəfindən keçirilən bütün tədbirlərdə iştirak etmək;
- UNEC "Cross-Cultural Club"-ın heyəti tərəfindən qəbul olunan qərarları yerinə yetirmək;
- UNEC-in nüfuzunu yüksəltmək.
- UNEC "Cross-Cultural Club"-ın fəaliyyətinə dair rəy və təkliflərini bildirmək;

## 6. UNEC "Cross-Cultural Club"-ın UNEC-in digər struktur bölmələri ilə qarşılıqlı əlaqələri

- UNEC "Cross-Cultural Club"-ın Tədbirlər planı barədə UNEC-də fəaliyyət göstərən Tələbə təşkilatlarını, Tələbələrin İctimai Birliklərini və digər ictimai təşkilatlarını məlumatlandırır; sosial-mədəni məsələlərinə dair ictimai tədbirlərdə birgə iştirak edir;
- Öz fəaliyyəti haqqında informasiya və reklam xarakterli materialları UNEC-in satında yerləşdirir.

## 7. UNEC "Cross-Cultural Club"-ın fəaliyyətinin maddi-texniki bazası

- UNEC tələbələrinin fəaliyyətini stimullaşdırmaq məqsədi ilə UNEC "Cross-Cultural Club"-ın layihələrini həyata keçirmək üçün qrant müsabiqələri, festivallar, maarifləndirici gəzintilər və s. təşkil edə bilər.
- UNEC "Cross-Cultural Club"-ın fəaliyyətində UNEC-in avadanlıq-larından istifadə edə bilər.

## 8. UNEC “Cross-Cultural Club”-ın kargüzarlığı

- UNEC “Cross-Cultural Club”-ın kargüzarlıq fəaliyyətinə onun işinin məzmununa uyğun olan sənədləşmələrin aparılması daxildir. Bu sənədlər aşağıdakılar ola bilər: müvafiq aktlar (UNEC rektorunun UNEC “Cross-Cultural Club”-ın işinə dair əmr və sərəncamları), UNEC “Cross-Cultural Club”-ın Əsasnaməsi, illik Tədbirlər planı və hesabatı, iclaslarının protokolları, festivalların və digər tədbirlərin sənədləri və materialları, qrant müsabiqələrinin və gəzintilərin keçirilməsi haqqında sənədlər və fotoşəkillər, UNEC “Cross-Cultural Club” üzvləri haqqında məlumat bazası, respublika təşkilatları və digər ali təhsil müəssisələri ilə yazışmalar və
- UNEC “Cross-Cultural Club”-ın kargüzarlıq sənədləri 5 il müddətində UNEC-in Beynəlxalq Əməkdaşlıq Departamentində saxlanılır. Sənədlər 5 ildən sonra UNEC-in arxivinə təqdim edilir.

## 9. Yekun müddəalar

9.1. UNEC “Cross-Cultural Club”-ın yaradılması, yenidən təşkili və ləğv edilməsi UNEC-in Elmi Şurasının qərarı ilə həyata keçirilir.

9.2. Bu əsasnaməyə dəyişikliklərin edilməsi UNEC-in Elmi Şurasının qərarı ilə aparılır.